**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT 792.**
**DOI: 10.52094/3005-9941.44.2023.051**

**Məmmədsafa Məmmədəli oğlu Qasımov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Xalq artisti, professor**

# HEYDƏR ƏLİYEV: MİLLİ TEATR VƏ KİNOMUZ

**Xülasə:** Məqalədə Ulu Öndər H.Əliyevin hər zaman teatra, kinoya, sənətə, ümumən yaradıcı insanlara çox böyük diqqət və qayğısından, Azərbaycan mədəniyyətinə və incəsənətinə layiqli töhfələr verməsindən, onun inkişafına çalışmasından bəhs olunur.

**Açar sözlər:** Azərbaycan teatrı, kino, festival

Azərbaycan teatrı və kinosu tarixində Umummilli liderin xüsusi yeri var. O, dövlət xadimi, böyük siyasətçi olmaqla yanaşı, incə zövq sahibi idi. Buna görə də, onun sənətə, sənət adamlarına qayğı göstərməsi təəccüb doğurmurdu. Bu qayğı teatr və kinomuzun yeni inkişaf yoluna çıxmasına, yeni üfüqlər kəşf etməsinə səbəb olmuşdur. Özü də bu qayğı onun ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərində müşahidə edilmişdir. Buna görə də, 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunmasının teatrımızın 150 illiyi ilə üst-üstə düşməsi heç də təsadüfi deyil.

Ulu Öndər hər zaman sənətə, yaradıcı insanlara çox böyük qayğı ilə yanaşıb. Onun tamaşalara, kinofestivallara getməsi, tamaşadan sonra sənət adamları ilə görüşməsi hər bir sənətkarın xatirəsinə həkk olunub.

Heydər Əliyev hər zaman Azərbaycan mədəniyyətinin və incəsənətinin tərəqqisinə çalışmış, bunun üçün hər cür şərait yaratmışdır. O, teatrı, musiqini çox sevirdi. Mütəmadi olaraq, mədəniyyət işçiləri ilə tez-tez görüşürdü.

Heydər Əliyev işinin çoxluğuna baxmayaraq, hər zaman teatra gedirdi, tamaşalara baxırdı və bu bir ənənəyə çevrilmişdi. Hələ 2002-ci ilin 7 dekabrında Dram Teatrında Vilyam Şekspirin "Hamlet" faciəsi yeni quruluşda tamaşaya qoyulurdu. Tamaşaya baxdıqdan sonra o qeyd etdi ki, Azərbaycan teatrı hər zaman Şekspirin əsərlərinə müraciət edib. O "Hamlet" əsərinin Azərbaycan səhnəsində çox oynanıldığını, bizim görkəmli aktyorlarımızdan olan Abbas Mirzə Şərifzadənin Hamlet rolunu ilk oynayan biri olduğunu, "Hamlet"in Azərbaycan səhnəsində dördüncü dəfə qoyulduğunu vurğuladı. Sonra o, Şekspirin yaradıcılığından, çonun böyük bir fəsəfə olduğunudan bəhs etdi. Rejissor Azərpaşa Nemətova minnətdarlığını bildirdi. Tamaşanın ifaçılarının ifasını bəyəndiyini vurğuladı. Əsas rolun qəhrəmanı Fuad Poladovu 1970-ci illərdən yaxşı tanıdığını, onun yenə də bu səhnədə olduğundan çox məmnun olduğunu, bu rolu böyük ustalıqla oynadığını qeyd etdi.

Əsərdə kral surətini canlandıran Rafael Dadaşovu, gənc aktyorların ifalarını

xüsusilə qeyd etdi və gənclərə etimad göstərilməsindən məmnun qaldığını və gənclərə gələcəkdə də etimad göstərilməsini tövsiyə etdi.

H.Əliyev teatr sənətinə, onun qanunauyğunluqlarına yaxşı bələd idi. Teatrın insanlara verdiyi xeyri, tərbiyəvi əhəmiyyətini çox gözəl başa düşürdü. Buna görə də, Umummilli liderin sənət adamlarına hörməti hər zaman hədsiz olub. Onun tamaşalara hər gəlişi, tamaşadan sonra aktyorlarla görüşməsi teatr kollektivlərini daha məsuliyyətli olmağa, yeni yaradıcılıq nailiyyətləri qazanmağa ruhlandırırdı. Teatrların repertuarı gündən-günə zənginləşirdi, yeni nəsil meydana gəlirdi, klassik teatr repertuarı ilə yanaşı müasir əsərlər meydana gəlirdi.

Azərbaycan teatrının 100 illik yubileyi münasibətilə Respublika Sarayında (indiki Heydər Əliyev adına saray) keçirilən təntənəli yığıncaqda rəhbərin teatrımızın tarixi, keçdiyi məşəqqətli yaradıcılıq yolu haqqında söylədiyi fikirlər bütün sənət adamlarının ürəyinindən xəbər verdi və bu teatra əsl fəlsəfi bir baxış nümunəsi idi. H.Əliyev qeyd etdi ki, teatr məbəddir, tərbiyə ocağıdır. Aktyorlar sözün əsl mənasında fədakardırlar.

Qətiyyətlə demək olar ki, milli teatrımızın inkişafı və dünya müstəvisinə çıxışında H.Əliyevin xüsusi yeri və rolu danılmazdır.

Milli teatrımız kimi kino sənətinin də şərəfli bir yol keçməsində Ulu öndərin əvəzsiz xidmətləri olmuşdur. Belə ki, bir çox filmlərin meydana gəlməsində onun bilavasitə rolu olub. Məsələn, "Uzaq sahillərdə" filmini yadımıza salaq. İkinci Dünya müharibəsində əsir düşmüş əfsanəvi partizan M.Hüseynzadəyə aid materiallar məxfi saxlanılırdı. Məhz H.Əliyevin təşəbbüsü ilə bu materiallar üzə çıxarılır və yenidən araşdırılır. Bundan sonra azərbaycanlı partizan M.Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilir. Həsən Seyidbəyli və İmran Qasımov tərəfindən "Uzaq sahillərdə" adlı roman yazılır. Bu roman əsasında hamının bildiyi "Uzaq sahillərdə" filmi çəkilir. Filmin rejissoru Tofiq Tağızadə idi. Bu film dünyanın 100-dən çox ölkəsində göstərilib.

Xalqını, millətini çox sevən Heydər Əliyev hər zaman kinoda Azərbaycan xalqının milli tarixinin, sokökünün əks olunmasını təbliğ edirdi. Sözümüzə sübüt olaraq, Azərbaycan tarixini, dahi şəxsiyyətlərini canlandıran "Dədə Qorqud", "Babək", "Nəsimi", "Nizami", "Ulduzlar sönmür" kimi ekran əsərlərini misal çəkmək olar.

1975-ci ildə "Dədə Qorqud" bədii filmi çəkilib. Bu filmin də ərsəyə gəlməsi məhz məhz H.Əliyevin tapşırığı ilə mümkün olmuşdur. Burada Azərbaycanın bir çox tanınmış sənət adamları iştirak edirdi. Ümumiyyətlə, Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının tədqiq olunması, təbliğ edilməsi sahəsində hər zaman mühüm tədbirlər həyata keçirib. Onu da xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyevin ölkəyə rəhbərik etdiyi dövrdə yaranan tarixi filmlərin büdcəsi sovet dövründə çəkilən filmlərin büdcəsindən qat-qat artıq olub. Bu tipli filmlərin çəkilişi üçün ölkə rəhbəri tərəfindən hər cür şərait yaradılıb. Eldar Quliyevin rejissor kimi ərsəyə gətirdiyi "Babək" filmi də ən bahalı büdcəsi olan filmlərdəndir.

Görkəmli xadim və böyük yazıçı Nəriman Nərimanovun adının üzərindən qadağaların götürülməsində də Heydər Əliyevin xidmətləri böyükdür.

Heydər Əliyevin kino sahəsində çalışanların maddi durumuna, onların sosial problemlərinin həllinə də xüsusi diqqət yetirirdi. Məhz onun diqqəti sayəsində kino sahəsində çalışanların məişət şəraiti yaxşılaşdırıldı, onlara fəxri adlar verildi.

Məhz H.Əliyevin səyi nəticəsində Bakıda ümumittifaq kino və televiziya filmləri festivallarının keçirilməsi ənənəsi reallaşdı.

Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi sonrakı illərdə də teatr və milli kinodan qayğısını əsirgəməyib. Gərgin siyasi mübarizə şəraitində, Qarabağın işğala məruz qaldığı bir vaxtda da Ulu öndər mədəniyyətdən qayğısını əsirgəməyib. Dağılmış kino sənayesinin dirçəldilməsi, Dövlət Film Fondunun yaradılması buna bariz misaldır.

Çox sevindirici haldır ki, H.Əliyev tərəfindən əsası qoyulan bu siyasət uğurla dövlət başçısı İlham Əliyev və onun xanımı vitse-prezident Mehriban xanım tərəfindən davam etdirilir.

## Ədəbiyyat siyahısı:

1. “Heydər Əliyev: görüşlər və çıxışlar”.
2. Məryam Əlizadə. “Heydər Əliyev və Azərbaycan teatrı” - 525-ci qəzet, - 2013, - s.4.
3. “Mədəniyyətimizin böyük hamisi” – Mədəniyyət qəzeti, - müxtəlif illərdə.
4. Ulduzə Qaraqızı. “Azərbaycan filmlərinin yaranma tarixi”.
5. Rəhimli İ. Sənət ulduzu. B.,1992.
6. Abdullayev K. Gizli Dədə Qorqud. B., Yazıçı, 1983.
7. Abdullayev M. Müasir teatrda ənənə və novatorluq məsələləri. B., 1974.
8. Abbasova F. “XX əsrin sonlarında Azərbaycan teatrında rejissor üslubları və sənətkarlıq problemləri”. Bakı, 2012.
9. Baxşıyeva G. Aktyor sənəti fənnində əsas amillər. Aztu. Bakı, 2010.
10. Cəlilova F. Hans – Tis Leman “Postdramatik teatr”. Bakı, 2022.
11. Çexov, M. Peşəkar aktyorluq dərsləri / Mixail Çexov; red. Y.Əliyev; tərc. F.Abdullayev. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 2018.
12. Hacıyeva Z. Teatr terminlərinin izahına dair metodiki göstəriş. Bakı, 1986.
13. İsrafilov İ. Stanislavski və aktyor sənətinin qrammatikası. Zərdabi Nəş. Bakı, 2021.
14. İsrafilov İ.......ə teatr / İsrafil İsrafilov. – Bakı: Şərq-Qərb, 2016.
15. Kazımov A. Rejissor sənətinin əsasları. Azərbaycan Nəş. Bakı, 2013.
16. Kazımov B. Aktyor sənəti fənni üzrə metodik vəsait. Bakı, 1982.
17. Qazıyeva N. “Səhnə pedaqogikası” Mars-Print nəş. Bakı, 2004.
18. Məmmədov M. Rejissor sənəti. Bakı, Maarif nəş., 1971.
19. Sultanov F. “Teatr terminləri lüğəti”. Bakı, 2020.

20. Sultanov F. Rejissorluq və aktyor sənəti. Proqram və metodik göstərişlər. Bakı, 1983.
21. Talıbzadə A. “Teatr tənqidi üzrə seminar”. ADMİU. Bakı, 2018.
22. Teymurova S. Rejissor sənətinin əsasları. Bakı, 2019.
23. Təhməzov N. “Rejissorluğun təşəkkülü və həqiqətləri” Nuran Nəş., Bakı, 2009.
24. Zakir Abbas. K.S.Stanislavski. Seçilmiş əsərləri, 2 cilddə, Avrasiya Press. Bakı, 2011.
25. Zaxava B.E. Aktyor və rejissor sənəti. Xüsusi mədəniyyət və incəsənət məktəbləri üçün dərs vəsaiti. Qanun Nəş., Bakı, 2019.

**İnternet resursları**

1. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000508727
2. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000535444
3. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000098735
4. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000091852
5. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000240541
6. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000697251

**Мамедсафа Гасымов**

## Гайдар Алиев: наш национальный театр и кино

**Резюме:** В статье излагается о внимании и заботе Г.Алиева о деятелях театра, кино, в целом о творческих людях, о его вкладе в развитие Азербайджанской культуры и искусства.

**Ключивые слова:** Азербайджанский театр, кино, фестиваль

**Mammadsafa Gasimov**

## Haydar Aliyev: our national theatre and cinema

**Summary:** The article tells about the Great Leader`s great attention concerning theater, cinema, art and creative people in genera. His contribution to Azerbaijani culture and art and his activities are noted.

**Key words:** Azerbaijani theater, cinema, festival

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.09.2023**